# HƏSƏNOV TABİL QASIM OĞLU



1960-cı il iyul ayının 4-də Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur. 1977-ci ildə burada orta məktəbi bitirmişdir. 1980-ci ildə hərbi xidmətə çağırılmışdır. 1982-ci ildə Qazaxıstan Respublikasında ordu sıralarından tərxis olunan Tabil doğulduğu Kosalara qayıdaraq kənd rabitə şöbəsində əmək fəaliyyətinə başlamışdır. 1991-ci il dekabrın 15-də ermənilər dörd tərəfdən Cəmilli kəndinə qəfil hücuma keçərkən Tabil öz dəstəsi ilə düşmənin qarşısına çıxmışdır. Cəmillidə ağır zərbə almış erməni yaraqlıları Meşəlidə qırğın törətməyə çalışırdı. Bundan xəbər tutan Tabil Kosalardan Meşəli kəndinə doğru irəlilədi. Döyüş bütün gecə və gündüz davam etdi. Dəstə döyüşlərdə qəhrəmanlıq göstərərək kəndi azad etmişdir. 1992-ci il martın 29-da ermənilər Daşaşıran istiqamətindən Kosalara hücum edərkən Tabil çoxlu sayda erməni yaraqlısını məhv etmiş və özü də döyüşdə qəhrəmancasına həlak olmuşdur. Kosalar kəndində dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Həsənov Tabil Qasım oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.